# Ağdamın Sarıcalı, Kəngərli və Xıdırlı kəndləri doğma sakinlərini qarşılamağa hazırlaşır



**Otuz ilə yaxın davam edən işğal dövründə xarabalığa çevrilmiş Ağdam bu gün yenidən qurulur. Böyük qayıdış proqramı çərçivəsində Ağdam şəhəri ilə yanaşı, Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərində də genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirilir, infrastruktur layihələri icra olunur.**







Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin mətbuat katibi Leyla Sarabi AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, Sarıcalı kəndində 203, Kəngərli kəndində 292, Xıdırlı kəndində isə 719 fərdi yaşayış evi inşa edilir. Qeyd edilən hər 3 kənddə fərdi yaşayış evləri ilə yanaşı, məktəblər, uşaq bağçaları, klub icma mərkəzləri, bayraq meydanı, bazar kompleksləri, məişət xidməti obyektləri, Ailə Sağlamlıq mərkəzləri, emalatxanalar, çoxfunksiyalı binalar və digər iaşə obyektləri də tikilir. Bu 3 kəndə yaxın vaxtlarda ilk köç planlaşdırılır.

**Kəngərli kəndi**

Kəngərli kəndində inşa edilən fərdi yaşayış evlərində daxili tamamlama və xarici bəzək işləri davam edir. Evlərdə Günəş panellərinin, həyətyanı sahələrdə tamet və hasarın quraşdırılması işləri aparılır. Su, qaz və kanalizasiya xəttinin çəkilməsi yekunlaşıb, ev birləşməsi işləri davam edir. Eyni zamanda kanalizasiya və rabitə quyularının, kabellərin quraşdırılması işləri də görülür. Həmçinin kənddə inşa edilən məktəbin dəmir-beton və daxili bəzək işləri icra edilir. Uşaq bağçasında dəmir-beton işləri yerinə yetirilib, daxili bəzək işləri aparılır. Kəngərli kəndində inşa edilən məktəb 2 mərtəbəli və 484 şagird yerlik, uşaq bağçası isə 120 yerlik olacaq. Çoxfunksiyalı bina, bazar kompleksi və tibb məntəqəsində də dəmir-beton işləri yekunlaşıb.

**Sarıcalı kəndi**

Sarıcalı kəndində həyətyanı landşaft işləri də yerinə yetiriləcək. Məktəb və bağçanın inşasında dəmir-beton hörgü və bəzək işləri davam edir. Sarıcalı kəndində inşa edilməkdə olan ikimərtəbəli məktəb 360 şagird yerlik, ikimərtəbəli uşaq bağçası isə 100 yerlikdir. Bazar kompleksi və tibb məntəqəsində dəmir-beton işləri yerinə yetirilib. Kənddə su xətinin çəkilişi yekunlaşıb. Qaz və kanalizasiya xətlərinin çəkilməsi işləri davam edir. Evlərə çıxış xətlərinin, kabellərin quraşdırılması və rabitə quyularının quraşdırılması işləri bitmək üzrədir.

**Xıdırlı kəndi**

Xıdırlı kəndində inşa edilən fərdi yaşayış evlərində daxili tamamlama işləri davam edir. 528 yerlik məktəb binasında artıq son tamamlanma işləri aparılır. Bu məktəb Qırğızıstan tərəfindən inşa edilir. İki yerüstü və bir yeraltı mərtəbədən ibarət olacaq binada 22 kabinet yaradılacaq. Məktəbdə, həmçinin idman və akt zalları, 2 əmək kabineti, kitabxana, fizika, kimya və biologiya laboratoriyaları, 2 informatika kabineti, ilkin hərbi hazırlıq kabineti istifadəyə veriləcək. Həmçinin Xıdırlıda da 120 yerlik uşaq bağçası inşa edilir. Klub icma mərkəzi, məişət xidmət obyekti və çoxfunksiyalı binanın inşasında dəmir-beton işləri yerinə yetirilib, daxili və xarici bəzək işləri davam edir. Su, qaz və kanalizasiya xəttinin çəkilməsi, ev birləşməsi işləri davam edir. Həyətyanı kanalizasiya xətti və yağış suları kanalizasiyasının tikintisi, evlərə çıxış xətlərin verilməsi, kabellərin çəkilməsi və rabitə quyularının quraşdırılması işləri də yerinə yetirilib.

Mühəndis Şaiq Məmmədov isə bildirib ki, Xıdırlı kəndinin tikintisi artıq yekunlaşmaq üzrədir. Kənddə inşa edilən 719 fərdi evin bir qismində işlər tam bitib, digərlərində son tamamlama, interyer işləri aparılır. Kənddaxili yolların yaxın günlərdə asfaltlanması nəzərdə tutulur. Kənddə elektrik dirəklərindən istifadə olunmayıb, bütün xətlər yeraltı çəkilib. Evlər inşa olunarkən yüksəkkeyfiyyətli materiallardan, istilik izolyasiyasından istifadə edilib.

Azərbaycan. - 2025.- 23 yanvar (№ 14).- S.10.